# AZƏRBAYCANIN TARİXİ ŞƏHƏRLƏRİNİN (GƏNCƏ VƏ ŞƏKİ) REKONSTRUKSİYA VƏ YENİLƏŞMƏ YOLLARI

**Teymurov İbrahim Qəhrəman oğlu-** dissertant, Memarlığın əsasları kafedrası, AzMİU,
ibrahim_t@bk.ru

**Annotasiya.** Gəncə və Şəki tarixi şəhərlərinin şəhərsalma problemlərini tənzimləmək üçün yerli potensialın müəyyən edilməsi və onların rasional istifadəsi aparıcı amillər hesab olunur. Məqalədə şəhərlərin, yeni layihələrin və yerli proqramların xarici əlaqəliyinin, yaşayış və istehsal keyfiyyətinin təkmilləşdiyi şəhərlərin yerləşdiyi bütün regionun, inkişafının kompleks proqramlarının tərtib edilməsində bu şəhərlərin yeniləşdirilməsi və yenidən qurulması sahəsində aparıcı istiqamətlər daha ətraflı təsvir edilmişdir. Beləliklə, Gəncə və Şəkinin planlaşdırma strukturunun yeniləşdirilməsi və yenidən qurulması üçün onların funksional bölgüsündə tarazlığın yaranması ilə birlikdə bu zonaların (yaşayış, ictimai-sənaye, istirahət-kommunikasiya) rasional inkişafı üçün əlavə şəraitin yaradılması kimi tədbirlərin həyata keçirilməsi lazımdır.
**Açar sözlər:** rekonstruksiya, struktur, şəhər, səmərəlilik, planlaşma, yeniləşmə

# THE WAYS OF RECONSTRUCTION AND RENOVATION OF THE HISTORIC TOWNS OF AZERBAIJAN (GANJA AND SHAKI)

**Teymurov Ibrahim Gahraman-** PhD, department of Basis of architecture, AzUAC,
ibrahim_t@bk.ru

**Abstract.** For resolution of urban problems of the historic towns of Ganja and Shaki, the leading factors are the identification of local potentials and their rational use. The article deals with the leading directions of renovation and reconstruction of these towns in the complex development programs for the region, where towns are located, new projects and local programs for improving their external relations, quality of housing and production. Therefore, for implementation, the renovation and reconstruction of the planning structure of Ganja and Sheki, requires actions that alongside the balance in their functional zoning would create additional conditions for the rational development of these zones (residential, industrial, public, recreational and communication).
**Keywords:** reconstruction, structure, town, rational, planning, renovation

Şəhərsalma problemlərinin nizamlanması və məsələlərinin həllində tarixi şəhərlərin məqsədyönlü yeniləşdirilməsində yerli imkanların üzə çıxardılması və səmərəli istifadəsi demək olar ki, aparıcıdır. Bu bölmədə Gəncə və Şəki şəhərlərinin müasir inkişafı zəruriyyətində onların «seçmə rekonstruksiya» metodu əsasında zaman tələbinə uyğun müəyyən planlaşdırma strukturlarının transformasiyaya ehtiyacıdır. Bu üzdən şəhərlərin son zamanlar geniş inkişaf tapan fəaliyyətləri (Gəncədə istehsal, yaşayış, mədəniyyət, Şəkidə isə turizm sahəsi) fonunda problemlərin həllinin aktuallığı daha da artır.

Hal-hazırda bu istiqamətdə müəyyən əhəmiyyətli işlər görülmüşdür. Bunların reallaşmasında əlbətdəki onların inkişaf proqramlarını təsdiqləyən baş planlarının sxemlərinin, tərtibatı böyük rol oynayır (Gəncə üzrə 2015-ci il, Şəki üzrə 2016/17-ci illər arası) [1]. Gəncə və Şəki şəhərlərinin konkret təbii-regional şəraitində tarixən formalaşmış mühitləri daxilində dəyişilmə prosesinə qoşulması və əməli fəaliyyətlərinin genişləndirilməsi artmaqda olan (Gəncəyə aid) əhalinin sosial durumunun yaxşılaşdırılması, sənaye-istehsal resurs və potensiallarının səmərəli istifadəsi və çox vacib olan kənd təsərrüfat sahələrinin də yeniləşdirilməsi (tütün, üzüm, meyvə və ipəkçilik) regionların hər birinin özünəməxsus iqtisadi dirçəlişin nəzərə alınması, bunun üçün nəzərdə tutulan layihələrin keyfiyətinə pozitiv təsir göstərə bilər və onların formalaşmasının əsasında duran planlaşma strukturu ilə xarici və daxili əlaqəlik (nəqliyyat və ticarət) infrastrukturlarını,

yenidənqurma prinsiplərini müəyyən edə bilər. Bunlarla bağlı bu şəhərlərin problemli məsələlərinin aradan qaldırılması yolunda Gəncədə- sənayenin zərərsizləşdirilməsi və ekoloji durumu, Şəkidə isə tez-tez təkrarlanan sel, uçqun, sürüşmələr məsələləri ilə bağlı səmərəli axtarışların paralaması da gündəmdə duran və kənarlaşdırılmayan məsələlər kimi öz həllini tapmalıdır.

Rekonstruksiya zəruriyyətində olan bu şəhərlərin xalq təsərrüfatı profili və ərazisinin istifadə edilməsi mövcud olan meyllərlə bağlıdır. Məsələn, Gəncənin funksional əhəmiyyəti artdığından, istehsal ictimai məkanların, küçə və meydanlar, yaşıllıqların nisbi ölçüləri azalır. Şəkidə isə yaşayış sahəsinin nisbi böyüklüyü şəhərin funksiyasından asılı olsa da çox cüzi dəyişir, çünki şəhər ərazisində ümumi balansı onun daha böyükdür. Bu azmərtəbli tikintilərin üstünlüyü sənaye və kommunal-anbar zonaların kiçikliyi ilə izah olunur. Gəncənin funksional dəyişməsi onun nəqliyyat ərazilərinin artmasına gətirib çıxardır, çünki sənaye kommunal-anbar zonalar artıq geniş sahələr tələb edir.

Göstərilən səciyyəvi fərqlər onların funksional zonalarının yeniləşməsini ərazidən səmərəli istifadəsini nümayiş etdirir. Məsələn, Gəncədə tikinti üçün uyğun olmayan ərazisi şəhər ərazisinin ancaq 10-15% təşkil edirsə, Şəkidə rahatsız, əlverişli olmayan yarğanlar və s. bu torpaqlar daha çoxdur, evlər isə dərə-təpəli relyeli ərazidə yerləşir, halbuki, şəhər ərazilərin daha çox məqsədyönlü istifadəsi nəinki qənaət etməyə, həm də funksional zonalaşmanın nizamlanmasına imkan verə bilər.

Deməli, Şəki şəraitində səmərəli istifadəsinin artması üçün digər mürəkkəb relyefli sahələrin daxili ehtiyatları mənimsənilməli. Məhz bu yol Şəkinin yeniləşməsi və ya rekonstruksiya şəraitində nəzərə alınaraq xüsusilə vacibdir, demək olar ki, bu vasitəni onun memarlıq-planlaşdırma strukturunun dəyişilməsi üçün yararlı saymaq olar. Bu səbəbdən həm Gəncənin həm də Şəkinin rekonstruksiya məqsədilə ərazilərinin zonalaşdırılması və şəhərlərin baş plana uyğun inkişafından asılı olaraq hər bir zona üçün xüsusi istifadə səmərəliliyi təyin edilməlidir.

Belə halda ola bilsin ki, mövcud vəziyyətdə ciddi dəyişikliklər onların mərkəzlərinin yerləri, inkişaf istiqaməti dəyişilə bilsin və ya yaşayış zonaları da artım sahə əldə edə bilsin. Bu isə öz yerində şəhərlərin bütün strukur bölmələrində (mərkəzdə, yaşayış rayonlarında və s.) yeni əlaqələrin, yəni nəqliyyat magistrallarının yaradılmasını tələb etsin.

Gəncə və Şəki şəhərlərinin mərkəz zonaları tarixən formalaşmış hissələr olduğundan və struktur toxunmadan və fiziki sıxlığı çox olduğundan orada ancaq seçimli rekonstruksiya tədbirlərin aparılması səmərəlidir [2]. Bu halda şəhərlərin kənar zonalarının planlaşma strukturunun yeni funksional təyinatlı təsirindən və transformasiyası mümkünlüyündən yarım-mərkəzlər əlavə əhəmiyyət ala bilər. Bu halda tarixi mərkəzlərdə seçmə sököntü metodu istifadə etməklə bu zonanın ictimai funksiyasını daha çox yaşıllıqların hesabına genişləndirmək düzgün olardı. Ancaq bu vəziyyətdə yarım mərkəzlərin təsir dərəcəsi arta bilər və xidmət obyektlərinin tarazlı istifadəsi mümkün olar. Bu mənada planlaşdırma struktunrunun rekonstruksiyasını mərələ bölümündə aparılması düzgün ola bilər.

İlk öncə mövcud yaşayış fondunun mənəvi və fiziki dəyərini qiymələndirərək bu fondun bir hissəsini saxlamaq, digər hissəsini isə yeni qeyri-yaşayış istifadə üçün təkmilləşdirərək idarə, mədəni-inzibati, məişət təşkilat və müəssisələri ixtiyarına vermək olar. İkinci mərhələdə şəhərin yaşayış massivlərinin qorunub saxlanılması məqsədilə abadlaşdırmaq və yenidənqurma tədbirlərinə kompleks yanaşma metodunu və struktur cəhətdən yeni bir quruluş prinsipini tətbiq etməklə mövcud sistemdə yeni və fərqləndirici bir obraz yaratmaq olar. Məsələn, Gəncədə Xaraba, Yeni Gəncə, Gülüstan yaşayış rayonlarında mövcud orta mərtəbəli yaşayış tikintisi tərkibinə küçə və ya meydan başında bir bloklu hündür həcmin əlavəsi ən səmərəli seçim ola bilərdi.

Bu şəhərlərin planlaşma strukturunun rekonstrukstya istiqamətlərindən biri də mövcud nəqliyat sistemində (xüsusilə də Gəncədə) radikal dəyişikliklərin aparılmasıdır. Üsullardan biri- nəqliyyat tarixinin əsas magistrallara calanması, dayanacaqları tikinti üçün yararlı olan baş sahələrdən ləğv edərək relyef kəskinliyində, bina-küçə altına köçürülməsi. Bu da öz yerində yaşayış ərazilərinin torvari şəbəkədən azad olub yaşıllıqların əlavə edilməsilə onların iriləşməsini mümkün edir.

Məhz rekonstruksiya prosesi düzgün seçilib aparılması hesabına yeni struktur vahidləri formalaşa bilər. Məsələn, məhəllə əvəzinə birləşmiş qruplaşma, pərakəndə yerləşən yaşıllıqların məqsədyönlü yerləşdirilməsi (mühafizə zolağı, kiçik skver, sarmaşıqlı canlı köşklər və s.). Struktur dəyişilməsinə lokal yanaşmanı həm Gəncə, həm də Şəki şəhərləri üçün yararlı saymaq olar, çünki belə kiçik ərazilər tərkibində dəyişikliklərin aparılması titkintinin məkan və planlaşdırma məsələlərinin daha səmərəli və komfortlu təmin edən həlli tapmağa imkan verər. Tikintinin bu formada dəyişdirilməsi nəticəsində yeni yaşayış qrupu (kompleksi) funksional və planlaşdırma cəhətdən daha yüksək keyfiyyətli olan bir strukturqurucu vahidi formalaşdıracaq.

Tədqiq olunan şəhərlərin struktur yeniləşdirməsinin yollarından biri də nəqliyyat kommunikasiyaların (vağzal, dayanacaq və s.), onların planlaşma strukturunu daha aktiv daxil edilməsidir. Bu ya iki səviyyəli yolların, (Şəkidə) ya da şəhərkənarı nəqliyyatın metro formasına keçidi ilə (Təbrizdə tramvay) reallaşa bilən planlaşdırma strukturunun ikinci dərəcəli xidmət sistemi insanın qulluğunda (mənəvi, maddi, mədəni, bədii estetik) duran müəssisə obyektlər və ya komplekslər-mərkəzlər sistemidir ki, onların pərakəndə yerləşməsinin qabağının alınması üçün bir neçə tənzimlənmə yolları seçilməldir (qrup şəklində, xətti sıravi yerləşmə, 2-3 səviyyəli yerləşmə, yaşayışla qarışıq istifadə forması və s.) [3]. Üçüncü strukturqurucu sistem- şəhər yaşıllıqlarıdır ki, onlar planlaşma prosesinin həm başında, həm ortasında və məkanlarının tamamlanması üçün vacib sayılan bir vasitədir.

Təbii iqlim şəraitindən asılı olaraq rekonstruksiya prosesinə onlar ya aktiv ya da passiv müdaxilə edə bilər. Aktiv quru iqlim, düzənlik yerlərdə bağ və parkların salınması, dağlıq yerdə isə təbii ətraf meşəliklə şəhər parklarının vahid bir strukturda həll edilməsidir. Tədqiq olunan şəhərlərin köhnə rayonlarının (zonalarının) formalaşmış strukturunu nəzərə alaraq mərhələ-mərhələ yaşıllıqlarının genişləndirilməsi (Gəncə üçün) və ya nizamlanması (Şəki üçün) onların yeri koloritini və bioloji əhəmiyyəti qoruyub saxlamaq rekonstruksiya vəzifələrindən biridir.

Şəhərin planlaşmasında strukturqurucu elementləri əgər müəyyən tarixi kəsimdə ən vacib funksiya daşıyan ən iri ərazi və əhəmiyyət kəsb edib strukturun formalaşmasını səciyyələndirən xüsusiyyəti müəyyən edirdisə, tarixin sonrakı mərhələlərində şəhərlərin iriləşib, status dəyişikliklərində bəzən o qeyri-mühərrik bir forma alaraq şəhər orqanizminin yeniləşmə prosesində maneəyə çevrilirdi. Bu üzdən yenidənqurulma prosesində zəruriyyətdən doğan dəyişikliklər təsirindən qeyri-mütəhərrik bir planlaşdırma strukturunun yeniləşdirilməsi üçün kütləvi məkan elementləri (meydan, küçə-magistral, şəhərin ictimai mərkəzi, yaşıllıqlar və s.) rekonstruksiyasında prosesinin təşkilində daha səmərəli istifadə edilməli və müəyyən qanunauyğunluq şərtləri üzrə aparılmalıdır. Belə açıq formalı, yəni genişlənməyə imkan verən struktur dəyişikliyi şəhər qurucu məkan elementlərinə toxunmadan ərazi istifadəsini 2-2,5 dəfə intersivləşdirmək imkanı əldə edir [4].

Məsələn, Şəkidə ipəkçilik müəssisələrinin bazasında kəlağayi, ipək parça hazırlayan fabrik, emalatxanaların inkişaf etdirilməsi tut bağlarının genişləndirilməsini əsaslandırır. Gəncədə isə mühüm funksional məkan elementlərindən olan və şəhərin planlaşma strukturunun təkmilləşdirilməsini mümkün edən sistem şəhərin nəqliyyat təsərrüfatıdır ki, o da tikinti-inşaat sahələri kimi qiymətləndirilməlidir, çünki onlar nəinki məhəllələrin istiqamət vericiləridir, həm də şəhər planının nizamlı bölgüsünü bildirən göstəricisidir, çünki onlara müvafiqlə yaşayış və ictimai tikililər öz memarlıq obrazını, görkəmini nümayiş etdirir şəhərlərin yeniləşən təzə məhəllə və xidmət zonaları təhrif olunma təhlükəsi olmadan inkişaf tapa bilsin.

Gəncəni bir regional mərkəz kimi dəyərləndirilən onun son baş plan sxeminə əsasən sərhədlərinin son ölçüləri barədə təsəvvür yaradan planlaşdırıcı strukturu və əməlini, real vəziyyətini bildirən mühit hissələrinin lokal fəaliyyətidir. Məsələn, son 20 ildə onun əhalisinin 2-3 dəfə çoxalması səbəbindən mikrorayonlarda müşahidə edilən situasiyasının tənzimlənməsi məqsədini daşıyan tədbirlər yenidən işlənməlidir. Lakin son zamanlar bu iki regionun dəyişiklikləri onların təsdiqlənmiş layihə proqnozlarını qabaqlayır, çünki ərazi ehtiyatları məhduddur və ya kifayət qədər səmərəli istifadə edilmir.

Bu səbəbdən səmərəli ola bilən rekonstruksiya üsullarının aşkara çıxarılması və bu yolda ən mühüm sayılan məkan elementlərinin təkmilləşdirilməsi üçün şəhər ərazilərinin kompleks qiymətləndirilməsi vacibdir ki, hər bir məkan hissəsinin yerindən funksional təyinatından asılı olacaq. Bu məqsədlə bu şəhərlərin bir neçə baş planlarının tutuşdurulması və dövlət proqramlarının inkişaf istiqamət və miqyası ilə uyğunlaşdırılaraq həyata keçirilməlidir. Bu səbəbdən məhz rekonstruksiya prosesi zamanı (müvəqqəti olan prosesdə) bir qayda olaraq ərazicən genişlənməsə də keyfiyyət və tərkib baxımdan şəhər görkəmlərinin xeyli dəyişilməsi yeni funksional zonaların meydana çıxıb təsdiqlənməsi ilə şərtlənir. Məsələn, Gəncə ərazisi 2,3 dəfə artıdığı halda Şəki ərazisi isə ancaq 0,7 dəfə artmışdı [5]. Bu səbəbdən də şəhər rayonlar çərçivəsində strukturqurucu məkan elementlərinin dəyişiklikləri kompleks şəkildə aparılmalıdır. Məsələn şəhərin baş meydanı inzibati əhəmiyyət baxımdan, tutum, nəqliyyat, idarə etmə təchizatı, yaşıllaşdırma baxımdan təkmilləşdirmə tədbirlərinin aparılması ilə reallaşa bilər. Şəhərin ticarət və mədəni-məişət mərkəzi yerləşmə baxımdan tərkib fəaliyyəti, komfortluq dərəcəsi, nəqliyyat, xidmət və yaşıllıq sistemlərinin pozitiv təsiri əsasında təkmilləşdirilməsi düzgün olar.

Yaşayış massivlərinin rekonstruksiya prosesində geniş diapazonda təkmilləşdirilməsi şəhərin hissələrinə nisbətən uyğunlaşdırılmış şəkildə aparılmalıdır (radikal, kütləvi, lokal seçimli). Onların əsas yeniləşmə prinsipləri əsasən insanın sosial tələblərinə cavab verən üsullarla təyin edilən prinsiplərdi (razılaşma, təkraretmə, etiraz, uyğunlaşma, kontrast, əvəzetmə, tamamlanma prinsipləridir). Bu üzdən tədqiq edilən şəhərlərin məskunlaşma sxemlərindən təbii-iqlim şəraitindən, resurs və potensial imkanlarından, eləcə də inzibatı-ictimai statusundan irəli gələn və asılı olan kənd təsərrüfat əraziləri istifadəsindən yaranan yerli istehsalat (sənaye iqtisadiyyatı, aqrar-sənaye profili, lokal tikinti resursu və s.).

Yaxın perspektivdə rayon yox regional planlaşma vacibliyində gələcək üçün qarşılıqlı əlaqəsi olan struktur elementləri və ya infrastruktur göstəricisi olan nəqliyyat və xidmət sistemləri nisbiliyində həll edilməlidir. Ancaq belə yanaşmada region xüsusiyyətləri ilə bağlı olan Gəncə və Şəki şəhərlərinin memarlıq-planlaşdırma strukturu özünəməxsus həll tapmaqla ümumi Respublika iqtisadi inkişafa qoşula bilər. Bu məqsədlə tədqiqatda ümumi plan strukturu çərçivəsində inkişaf fonunda şəhər hissələrinin qurulmasına aid prinsipal sxemlər tərtib etmək düzgündür.

Qeyd edək ki, şəhərlərin planlaşdırma strukturunun rekonstruksiya təklifində dəyişikliklərin reallaşdırılması üçün sintez və tarazlaşdırılmış, razılaşdırılma sxemləri tərtib edilməli, ən vacib lokal olsa da fəaliyyət funksional mahiyyəti yüksək olan məkan hissələrin təkmilləşdirilməsi prosesində şəhər meydanlarının yerinin təyini, şəhərin su təchizatçısı, kommunikasiya sistemlərinin tənzimlənməsi, yaşıllaşdırma, istirahət-rekreasiya sisteminin və əlaqələri yaxınlığında yeni qurğuların yaradılması və s. vasitələrin həlli sistemli şəkil almalıdır. Məhz bu yanaşma struktur-quruluş xarakteri aldığından bir çox aspektlər baxımından səmərəlidir.

**Nəticə.**Bu lokal, lakin qarşılıqlı pozitiv xarakter daşıyan dəyişikliklər belə tarixi şəhərlərin çox yararlı və zəngin memarlıq abidələri olan ətraf rayonlarının şəhər kənarı struktur quruluşuna da özünəməxsus formada təsir edə bilər. Məsələn, Gəncədə fərdi yeni yaşayış tikintisinin genişləndirilməsi, kənd təsərrüfatının mexanikləşdirilməsi və industrial relsə qoyulması, Şəkidə isə beynəlxalq turizm sisteminin bu regionda daha geniş vüsat alması üçün otel və xidmət fondlarının artırılması, ənənəvi sənətkarlıq sahələrinin lokal istehsalat birlikləri sırasında inkişaf etdirilməsi və s. Bunları nəzərə alaraq tədqiqatın bu bölməsinin nəticələri kimi Gəncə və Şəki şəhərlərinin planlaşdırma strukturlarının inkişaf istiqamətləri müəyyən edilərək bir regenerasiya prosesi kimi irəli sürülür.

## Ədəbiyyat

1. Həsənov Ə.A.Azərbaycanın tarixi şəhərlərində memarlıq ənənələrinin yaradılması və inkişafı/ mem.nəmidəzi alimlik elmi dərəcəsi almaq üçün təqdim edilmiş avtoreferat, Bakı, 2005,23 s.
2. Насирли М.Х. Гянджа. Архитектурно-планировочное развитие. Баку: Элм, 1990, 108 с.
3. Салаева Р.Д., Саламзаде А.В., Авалов Э.В. Проблемы сохранения и реконструкции

исторических городов Азербайджана. Баку: Элм, 1979. - 140 с.
4. Усейнов М.А., Саламзаде А.В., Бретаницкий Л.И. История архитектуры Азербайджана. М.: Стройиздат, 1963, 363 с.
5. Фатуллаев Ш.С. Градостроительство и архитектура Азербайджана XIX – начала XX веков. Ленинград: Стройиздат, 1986, 440 с.

**References**

1. Hesenov A.A. Azerbaycanin tarixi sheherlerinde memarlıq enenelerinin yaradilmasi ve inkishafi/mem.namidezi alimlik elmi derecesi almaq uchun teqdim edilmish avtoreferat, Baku, 2005, 23 s.
2. Nasirli M.Kh. Gyandzha. Arkhitekturno-planirovochnoye razvitiye. Baku: Elm, 1990, 108 s.
3. Salayeva R.D., Salamzade A.V., Avalov E.V. Problemy sokhraneniya i rekonstruktsii istoricheskikh gorodov Azerbaydzhana. Baku: Elm, 1979, 140 s.
4. Useynov M.A., Salamzade A.V., Bretanitskiy L.I. Istoriya arkhitektury Azerbaydzhana. M.: Stroyizdat, 1963, 363 s.
5. Fatullayev SH.S. Gradostroitel'stvo i arkhitektura Azerbaydzhana XIX – nachala KHKH vekov. Leningrad: Stroyizdat, 1986, 440 s.

Redaksiyaya daxil olma/Received 06.02.2019
Çapa qəbul olunma/Accepted for publication 06.03.2019